# Həftəlik
# *Bülleten*



**126**

**23 Yanvar 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**Anar Quliyev qlobal mənzil böhranının həllinə dair Azərbaycanın təcrübəsini bölüşüb.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev Cenevrədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 35-ci Yüksək Səviyyəli Toplantısı çərçivəsində dövrümüzün ən aktual çağırışlarından biri olan qlobal mənzil böhranının həllinə dair birgə yanaşmalara həsr olunmuş panel müzakirəsində çıxış edib. Komitədən verilən məlumata görə, panel müzakirəsi zamanı iqlim dəyişikliyi, məcburi köçkünlük və demoqrafik dəyişikliklərin mənzil məsələsini şəhər gündəliyinin mərkəzinə çıxardığı vurğulanıb. Bu kontekstdə Anar Quliyev mənzilin ayrıca bir sahə kimi deyil, təhlükəsiz, inklüziv və dayanıqlı şəhər və yaşayış məskənlərinin əsas sütunu kimi nəzərdən keçirilməsinin vacibliyini qeyd edib. Komitə sədri Azərbaycanın əlçatan mənzil sahəsində əldə etdiyi təcrübəni, həmçinin “Yenidən və daha yaxşı qur” prinsipi əsasında Qarabağ və Şərqi Zəngəzur ərazilərində həyata keçirilən yenidənqurma işlərini və əhalinin doğma torpaqlara qayıdışını təmin edən transformativ yanaşmaları iştirakçılarla bölüşüb. Bildirib ki, mənzil sahəsində mövcud çağırışlar heç bir ölkə tərəfindən təkbaşına həll edilə bilməz. Bu baxımdan o, beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, həmkarlarını 17–22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştiraka dəvət edib.



**Azərbaycanda mənzil tikintisinə ötən il 3 milyard manatdan çox sərmayə yatırılıb.**

2025-ci ildə Azərbaycanda tikinti sektoru üzrə əsas kapitala yönəldilmiş investisiyaların dəyəri 5,725 milyard manat təşkil edib. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edib. Bildirilib ki, bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 3% çoxdur. Sözügedən sahə üzrə əsas kapitala yönəldilmiş investisiyaların yekunda xüsusi çəkisi 27%-ə bərabər olub. Hesabat dövründə tikinti sektoruna yatırılmış investisiyanın 3,074 milyard manatı mənzil tikintisinə yönəldilib ki, bu da 2024-cü ildəki göstəriciyə nisbətən 8% artım deməkdir. Dövr ərzində mənzil tikintisi üzrə əsas kapitala yönəldilmiş investisiyaların yekunda xüsusi çəkisi 14,5%-ə bərabər olub. Qeyd edək ki, 2025-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 21,226 milyard manat və ya 2024-cü illə müqayisədə 5,6 faiz az investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 10,3 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 3,9 faiz azalıb. Ümumi sərmayənin 10,972 milyard manatı və ya 51,7 faizi məhsul istehsalı sahələrinin, 7,180 milyard manatı (33,8 faizi) xidmət sahələrinin, 3,074 milyard manatı (14,5 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb. Ümumi sərmayənin 53,2 faizi dövlət, 46,8 faizi qeyridövlət sektorunun sərmayədarları tərəfindən qoyulub. Sərmayə qoyuluşunun 75,5 faizi tikinti-quraşdırma işlərinə sərf edilib.



**Azərbaycan sement ixracından 60 milyon dollar qazanıb - YENİ RƏQƏMLƏR.**

2025-ci il ərzində Azərbaycandan 59,6 milyon dollar həcmində 957 min ton sement ixrac edilib.

Dövlət Gömruk Komitəsinə istinadən xəbər verilir ki, sement ixracı ötən illə müqayisədə dəyər ifadəsilə 6,5 milyon dollar və ya 12,3%, miqdar ifadəsilə isə 106,3 min ton, başqa sözlə 12,5% çoxdur.

Qeyd edək ki, 2024-cü il ərzində Azərbaycandan 53,1 milyon dollar dəyərində 850,7 min ton sement ixrac olunmuşdu.

2025-ci ilin nəticələrinə görə Azərbaycanın ixrac etdiyi sementin 1 kiloqramının orta ixrac qiyməti 10,6 qəpik təşkil edib. 2024-cü ildə də bu rəqəm eyni idi, qiymətdə cüzi - 0,2%-lik ucuzlaşma müşahidə edilib.

Bu il ümumi ixracın 0,24%-i, qeyri-neft sektoru üzrə ixracın isə 1,64%-i sementin payına düşüb. Ötən il isə müvafiq göstəricilər 0,20% və 1,58% olmuşdu.



**Alüminium ixracı Azərbaycana milyonlar qazandırıb - GƏLİRLƏR 48 MİLYON DOLLAR ARTIB.**

2025-ci il ərzində Azərbaycandan 244 milyon 911 min dollar həcmində 85,8 min ton alüminium və ondan hazırlanan məmulatlar ixrac edilib.

Dövlət Gömruk Komitəsinə istinadən xəbər verilir ki, alüminium ixracı ötən illə müqayisədə dəyər ifadəsilə 47,7 milyon dollar və ya 24,2%, miqdar ifadəsilə isə 13,1 min ton, başqa sözlə 18,1% çoxdur.

Qeyd edək ki, 2024-cü il ərzində Azərbaycandan 197 milyon 197 min dollar dəyərində 72,7 min ton alüminium ixrac olunmuşdu.

2025-ci ilin nəticələrinə görə Azərbaycanın ixrac etdiyi alüminiumun 1 kiloqramının orta ixrac qiyməti 4 manat 85 qəpik təşkil edib. 2024-cü ildə isə bu rəqəm 4 manat 62 qəpik idi. Bu da illik müqayisədə 23 qəpik və ya 5% bahalaşma deməkdir.

Bu il ümumi ixracın 0,98%-i, qeyri-neft sektoru üzrə ixracın isə 6,75%-i alüminiumun payına düşüb. Ötən il isə müvafiq göstəricilər 0,74% və 5,88% olmuşdu.



**Dünya Şəhər Forumu – 13-cü Sessiya (WUF13) ilə əlaqəli Özəl Sektor üçün məlumat sessiyası baş tutmuşdur.**

BMT-nin Məskunlaşma Proqramı tərəfindən Azərbaycan üzrə maraqlı tərəflər üçün 19 yanvar 2026-cı il tarixində Özəl Sektor üçün məlumat sessiyası baş tutmuşdur.

Sessiya çərçivəsində Dünya Şəhər Forumu – 13-cü Sessiya (WUF13) haqqında ümumi məlumat verilmiş, maraqlı tərəflərin cəlb olunması prosesi izah olunmuş və özəl sektor nümayəndələrinin Forumun hazırlıq mərhələlərinə və proqramına töhfə imkanları diqqətə çatdırılmışdır.

Növbəti mərhələlər və proseslər barədə Biz Sizə ətraflı məlumat verəcəyik.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: STONE & SURFACE SAUDI EXPO 2026**

**Tarixlər: 2026-cı ilin fevral ayında,**

**Məkan: Ər-Riyad Beynəlxalq Sərgi Mərkəzində, Ər-Riyad (Səudiyyə Ərəbistanı)**

Səudiyyə Ərəbistanında Beynəlxalq Təbii Daş, Kafel və Örtüklər Sərgisi. DAŞLAR VƏ SƏTHLƏR SAUDI EXPO qlobal distribyutorlar, istehsalçılar, memarlar, interyer dizaynerləri, podratçılar və daşınmaz əmlak inkişafı üçün görüş yeridir.

**Sərginin adı: BUDMA 2026**

**Tarixlər: 03 - 06 Fevral 2026 – cı il,**

**Məkan: Poznan Konqres Mərkəzi, Poznan (Polşa)**

Beynəlxalq Tikinti və Memarlıq Sərgisi. BUDMA bütün tikinti sənayesini bir araya gətirən bir tədbirdir.

**Sərginin adı: INTERIOR & EXTERIOR DESIGN MEETINGS - MARBELLA 2026**

**Tarixlər: 03 - 05 Fevral 2026 - cı il,**

**Məkan: Adolfo Suarez Konfrans və Sərgi Mərkəzi, Marbella (İspaniya)**

Bütün lüks və ultra-lüks layihələrinizin dizaynı, təmiri və dekorasiyası üçün həllər, məhsullar, materiallar, dekorativ əşyalar və mebellərin fərdi görüşlər sərgisi.

**Sərginin adı: STONE POZNAN 2026**

**Tarixlər: 03 - 06 Fevral 2026 - cı il,**

**Məkan: Poznan Konqres Mərkəzi, Poznan (Polşa)**

Mərkəzi və Şərqi Avropada daş sənayesi üçün ən vacib biznes tədbiri.

## "ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Şəmkir şəhəri, Nizami Gəncəvi küçəsində yerləşən Şəmkir şəhər Uşaq Musiqi Məktəbi binasının əsaslı təmir işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, Baş mütəxəssis
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti tender elan edir. Elanda Şəki şəhəri, Biləsuvar, Sabirabad, Saatlı, Ağcabədi və Balakən rayonlarında salınmış məcburi köçkün qəsəbələrində yerləşən fərdi yaşayış evlərinin və mənzillərin təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu: +994 12 430 15 30



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Xızı rayonu inzibati ərazisində yerləşən Mikayıl Müşviqin xatirə muzeyinin əsaslı təmiri işləri ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, Baş mütəxəssis
Email: tender@culture.gov.az
Əlaqə telefonu:+994 12 565 01 47



**AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyi açıq tender elan edir.
Elanda Müxtəlif növ boyaların satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Abbasov, Satınalma komissiyası üzvü
Email: satinalma@mod.gov.az
Əlaqə telefonu: +994 12 525 37 92



**"AZƏRBAYCAN YERÜSTÜ NƏQLİYYAT AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi açıq tender elan edir.
Elanda Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) Respublika ərazisində yollarda xətlənmə işləri, simvollar və boyalar satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rüfət Sərdarlı, Baş mütəxəssis
Email: rufat.sardarli@ayna.gov.az
Əlaqə telefonu:+994 50 872 01 02



